# AZƏRBAYCAN DİLİ

FƏNNİ ÜZRƏ ELEKTRON DƏRS VƏSAİTİ

# III.Sözün tərkibi və söz yaradıcılığı

# Kök və şəkilçi sözün mənalı hissəsidir.

Sözün ayrılıqda işlənə bilən, əsas mənanı ifadə edən hissəsinə kök deyilir. Azərbaycan dilində adətən, kök əvvəl, şəkilçi sonra gəlir.

Sözün ayrılıqda işlənə bilməyən, yalnız kökə qoşulmaqla müəyyən məna daşıyan hissəsi şəkilçi adlanır. Şəkilçilərdən hər birinin qrammatik mənası olur.

# III.Sözün tərkibi və söz yaradıcılığı

1.Şəkilçilərin növləri

# 1.Şəkilçilərin növləri

## 1.Leksik şəkilçilər

Qoşulduqları söz köklərindən yeni sözlər düzəldir.

- Gör – görüş        cild – cildçi
- bulud – buludlu        yaxşı – yaxşılıq

## Qrammatik şəkilçilər

Sözün ancaq formasını dəyişdirir. Söz birləşmələri və cümlələrdə sözləri bir-birinə bağlamağa xidmət edir. cəm, hal, zaman, şəxs şəkilçiləri, və s. qrammatik şəkilçilərdir.

- Kitab – kitablar        oxu – oxudu
- dəftər – dəftərin        gəl – gəlir

# III.Sözün tərkibi və söz yaradıcılığı

1.Şəkilçilərin yazılışı

# 1.Şəkilçilərin yazılışı

## Leksik şəkilçilər

- Ahəng qanununa uyğun olaraq, əsasən, iki və dörd cür yazılır. Lakin belə şəkilçilər sırasında bir cür yazılanları da var.
  - -daş, -kar, -keş, -dar
  - **vətən-daş, tələb-kar, zəhmət-keş, anbar-dar**

## Qrammatik şəkilçilər

- Ahəng qanununa uyğun olaraq həmişə iki və dörd cür yazılır.
  - -lar, -lər, -dı, -di, -du, -dü
  - **uşaq-lar, gəl-di, oxu-yur**

1. İki cür yazılan şəkilçilərin tərkibində yalnız iki açıq sait iştirak edir: **a, ə: -lar, lər** Digər açıq saitlər **e, o, ö** şəkilçilərdə ona görə iştirak etmir ki, əsl Azərbaycan sözlərində həmin səslər sözün birinci hecasından sonrakı hecalarında işlənmir.

2. Qapalı saitlər **ı, i, u, ü** isə sözün bütün hecalarında işləndiyi üçün şəkilçilərin də tərkibində iştirak edir. Buna görə də qapalı saitli şəkilçilər ahəng qanununun tələbinə uyğun olaraq dörd cür yazılır.

3. Şəkilçilərin əvvəlində gələn **y, n** samitləri bitişdirici samitlər adlanır. Onlar saitlə bitən sözlərə saitlə başlanan şəkilçilər artırdıqda işlənir.

- İşlə-y-əcək
- Küçə-n-in
- Qutu-n-un